# BEYNƏLXALQ TƏDBİR VƏ YARIŞLARDA ƏLDƏ EDİLMİŞ UĞURLU NƏTİCƏLƏR

Dövlət Gömrük Komitəsinin Kinoloji Mərkəzi müxtəlif beynəlxalq yarışlarda iştirak edərək bir sıra uğur və nailiyyətlər əldə etmişdir.

Beləki, 2002-ci ildə Slovakiyanın paytaxtı Bratislava şəhərində keçirilən Polis Departamentinin xidməti axtarış itlərinin partlayıcı maddələrin axtarışı üzrə yarışlarda şəxsi birincilikdə I yer, 2011-ci ildə Moskva şəhərində MDB-nin gömrük orqanlarının kinoloji xidmətləri arasında keçirilən yarışlarda II yer, 2012-ci ildə Bakı şəhərində MDB-nin gömrük orqanlarının kinoloji qurumları arasında keçirilən yarışlarda I yer, 2012-ci ildə Ukraynada keçirilən beynəlxalq yarışlarda II yer, 2013-cü ildə Qırğızıstan Respublikasının Bişkek şəhərində MDB-nin gömrük strukturlarının kinoloji xidmətləri arasında keçirilən yarışlarda II yer, 2015-ci il Bakıda baş tutmuş MDB-nə daxil ölkələrin gömrük orqanlarının kinoloji xidmətləri arasında keçirilən yarışlarda II yerə, 2019-cu ilin avqust ayında Moskva şəhərində MDB-nin gömrük orqanlarının kinoloji xidmətləri arasında keçirilən yarışlarda I yerə, 2022-ci ilin sentyabr ayında Özbəkistan Respublikasının paytaxtı Daşkənd şəhərində MDB-nin gömrük orqanlarının kinoloji xidmətləri arasında keçirilən yarışlarda III yerə və 2023-cü ilin iyun ayında Gəncə şəhərində MDB-nin gömrük orqanlarının kinoloji xidmətləri arasında keçirilən yarışlarda III yerə layiq görülmüşdür.


















